**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXS**

1938

**TƏSDİQ EDİRƏM:**

**GDU-nun rektoru __________ prof.Y.Ə.YUSİBOV**

**"16" iyul 2025-ci il**

# Kimya və Biologiya fakültəsi

# Strateji plan (2023-2028)

**Gəncə-2025**

## Kimya və biologiya fakültəsi

Fakültənin əsası 1938-ci ildə qoyulmuşdur. Yetmiş səkkiz illik fəaliyyəti dövründə fakültədə 19000-dən çox müxtəlif ixtisaslar üzrə mütəxəssis hazırlığı həyata keçirilmişdir. Bu işdə dekanlıq və ixtisas kafedralarının rolu böyükdür. İlk yaranılandan fakültədə bütün fənlər "Təbiətşünaslıq" kafedrasında cəmləşmişdir. Qəbul planının artması və yeni-yeni ixtisasların yaranmasının nəticəsi olaraq "Təbiətşünaslıq" kafedrasının əsasında yeni kafedralar açılmışdır. Hazırda respublikamız və xüsusən qərb bölgəsi üçün mütəxəssis hazırlığını fakültə 4 ixtisas kafedrası ilə həyata keçirir. ("Botanika", "Kimya", "Anatomiya, fiziologiya və zoologiya", "Ekologiya və təbii mühafizə"). Mütəxəssis hazırlığı və tədrisin keyfiyyətinin müasir tələblərə cavab verə bilməsi səviyyəsinin yüksəldilməsi, gənclərdə tədqiqatçılıq vərdişlərinin inkişaf etdirilməsi üçün laboratoriyaların və mühazirə auditoriyalarının maddi texniki bazası müasirləşdirilməkdə davam edir. "Botanika" kafedrasının "Bitki anatomiyası və morfologiyası", "Bitki sistematikası", "Bitki fiziologiyası və mikrobiologiya" laboratoriyaları var. Laboratoriyalarda mikroskoplardan, daim nəzarətdə saxlanılan mikrotəsərrüfat nümunələrindən, herbarı nümunələrindən, tədris və istehsalat təcrübələrinin gedişinə, relyefin dəyişməsinə bitki örtüyünün təsirini öyrənməyə xidmət edən və təbiətşünaslıqlarla birgə işinin nəticəsi olan slaydlardan, kompüterdən, proyektordan, bitkinin fiziologiyası və mikrobiologiya fənlərinə aid cihaz və avadanlıqlardan istifadə edilir. Nəzəri biliklər təcrübə ilə təsdiqlənir, müşahidə və tədqiqatlar nəticəsində müvafiq nəticələr əldə olunur və dərs prosesində tələbələrin iştirakı ilə müzakirə şəklində saxlanılır. Sillabuslarda mühazirə və seminar məşğələlərinin mövzularına uyğun hazırlanmış dərsliklər, dərs vəsaitləri, metodik tövsiyələr, toplu şəklində proqramları və s. var.

"Kimya" kafedrası "Qeyri-üzvi və analitik kimya", "Fiziki və kolloid kimya", "Üzvi sintez və kimya texnologiyası" və s. laboratoriyalardan ibarətdir. Laboratoriyalar müasir avadanlıqlarla yenidən qurulmuşdur. Tələbələrə laborator məşğələlərinin gedişində sərbəst iş şəraiti yaradılmışdır. Bu imkan onların tədqiqat sahəsinə və kimya elminə marağını artırır. Kafedrada tədris, elmi-metodik, elmi tədqiqat və s-ya dair zəngin proqramlar, dərsliklər, təlimat sənədləri, assambleyalar və s. var.

"Anatomiya, fiziologiya və zoologiya" kafedrasında "İnsan və heyvan fiziologiyası", "İnsan anatomiyası və morfologiyası", "Zoologiya" adlı ixtisaslaşmış laboratoriyalar fəaliyyət göstərir. Burada tədris olunan fənlərin proqramları toplu şəklində nəşr olunub. Mühazirə və laborator məşğələlərində ekspedisiyalar, tədris və istehsalat təcrübələri zamanı toplanmış slaydlardan, formalində saxlanılan heyvan nümunələrindən, proyektorlardan, kompüterlərdən, əyani lövhədən, sxem və diaqramlardan istifadə edilir. Dərsliklər var.

"Ekologiya və təbii mühafizə" kafedrasının "Ekologiya" laboratoriyasının maddi bazası yenidir. Əyani və texniki vasitələrlə təmin olunub. Tədris prosesində

tələbə və müəllimlər kompüterlərdən, proyektorlardan, ağıllı lövhələrdən və istehsalat təcrübələrinin gedişini, öyrənilən problemlərin mahiyyətini özündə əks etdirən slaydlardan istifadəyə xüsusi yer verilir. Araşdırma və aparılan müqayisəli təhlil tələbələrdə də elmi dünyagörüşün inkişafına səbəb olur. Proqramlar və dərsliklər var.

Tədris və istehsalat təcrübələrində, ekspedisiyalarda şəhər ətrafı istiqamətlərin, xüsusən qərb regionunun bitkiörtüyü və heyvanat aləmi öyrənilir, nümunələr toplanılır, yerindəcə müvafiq qeydlər götürülür, slaydlar üçün materiallar əldə edilir. Axsu balıq zavodu, şərab və aliminium zavodlarından, yağ-piy kombinatından, orta məktəblərdən, muzeylərdən istifadə tədrisin keyfiyyətini yaxşılaşdırır.

Fakültədə bakalavar təhsil pilləsində Biologiya – 050505, Biologiya müəllimliyi – 051100, Kimya – 050504, Kimya müəllimliyi – 050111, Kimya və Biologiya müəllimliyi – 050112, Kimya mühəndisliyi – 051608, Ekologiya mühəndisliyi – 050606, Ekologiya – 05510 ixtisasları üzrə mütəxəssislər hazırlanır.

Mütəxəssis hazırlığı ilə 73 nəfər professor-müəllim və 38 nəfər tədris köməkçisi heyəti məşğul olur. Bunlardan bir nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü professor, 4 nəfər professor, 2 nəfər professor (attestatsız), 18 nəfət dosent, 7 nəfər f.d.dosent (attestatsız), 9 nəfər baş müəllim fəlsəfə foktoru, 30 nəfər baş müəllim və müəllimdir. Tədris köməkçi heyətinin 4 nəfəri laboratoriya müdiri, 22 nəfəri böyük laborant, 9 nəfəri lobarant, 3 nəfəri operator və 2 nəfəri properator kimi fəaliyyət göstərir. Kafedralar üzrə göstəricilər aşağıdakı cədvəldə verilmişdir. Fakültədə 73 nəfər professor-müəllim və 40 nəfər tədris köməkçi heyəti fəaliyyət göstərir.

| **Professor müəllim və köməkçi heyəti** | **İxtisas kafedraları** | | | |
|---|---|---|---|---|
| | **Botanika** | **Kimya** | **Anatomiya və zoologiya** | **Ekologiya və təbiəti mühafizə** |
| 1.Müxbir üzvü professor | 1 | - | - | - |
| 2.Professor | 1 | 2 | - | 1 |
| 3.Professor (attestatsız) | - | 1 | 1 | - |
| 4.Dosent fəxri professor | 1 | 1 | - | - |
| 5.Dosent | 4 | 6 | 4 | 4 |
| 6.Fəlsəfə doktoru dosent əvəzi | 2 | 1 | 2 | 2 |
| 7.Fəlsəfə doktoru baş müəllim | 3 | 2 | 2 | 2 |
| 8.Baş müəllim | 2 | 8 | 5 | 1 |
| 9.Müəllim | 3 | 4 | 6 | 1 |
| 10.Laboratoriya | 0 | 2 | 0 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| müdiri | | | | |
| 11.Böyük laborant | 3 | 11 | 5 | 3 |
| 12.Laborant | 4 | 3 | 2 | 1 |
| 13.Operator | - | 2 | - | 1 |
| 14.Preparator | - | 2 | - | 1 |
| Cəmi | 24 | 45 | 25 | 19 |

**Kimya və biologiya fakültəsində**
**Strateji fəaliyyət planına daxil olunan hədəf və məqsədlər**

**Məqsəd 1.** Effektiv təlim və öyrənmə mühiti yaratmaq
Hədəf 1.1. Tədris prosesində yeni təlim texnologiyaları və tədris metodlarını tətbiq etmək
Hədəf 1.2. Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə sisteminə keçmək
Hədəf 1.3. Dərslər üçün keyfiyyətli tədris materiallarının hazırlanması və düzgün təlim strategiyasının seçilməsi
Hədəf 1.4. Əmək bazarının tələblərinə uyğun yeni proqramlar tərtib etmək
Hədəf 1.5. Təhsil proqramını yeniləmək məqsədi ilə düzgün idarəetmə və qiymətləndirmə vasitələrinin seçilməsinə diqqəti artırmaq

**Məqsəd 2**. Elmi tədqiqatları inkişaf etdirmək
Hədəf 2.1. Qlobal elmi məkanına inteqrasiya
Hədəf 2.2. Elmi tədqiqatları inkişaf etdirmək

**Məqsəd 3.** İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək
Hədəf 3.1. İnnovasiya və sahibkarlığın inkişafı üçün infrastrukturu təkmilləşdirmək
Hədəf 3.2. Startupların inkişafını dəstəkləmək
Hədəf 3.3. Fakültədə tələbələrə əqli-mülkiyyət məsələlərində köməklik göstərmək

**Məqsəd 4.** Beynəlxalq fakültəyə çevirmək
Hədəf 4.1. Əcnəbi professor-müəllim heyəti və tələbələrin cəlb olunması
Hədəf 4.2. Təhsilin beynəlmilləşməsi məqsədilə yeni proqramlar yaratmaq
Hədəf 4.3. Beynəlxalq rəqabətliliyi artırmaq
Hədəf 4.4. Akademik imkanların genişləndirilməsi

**Məqsəd 5.** Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək
Hədəf 5.1. Nəticəyönümlü və şəffaf idarəetmə modeli yaratmaq
Hədəf 5.2. İnsan resursları sahəsində idarəetmənin yaxşılaşdırılmaq
Hədəf 5.3. İnnovasiya resursları sahəsində idarəetməni yaxşılaşdırmaq

**Məqsəd 6.** Dayanıqlı inkişafı təşviq etmək
Hədəf 6.1. Ətraf mühitin qorunması, iqlim dəyişikliyi ilə mübarizə, enerji resurslarından səmərəli istifadəni dəstəkləmək
Hədəf 6.2. Dayanıqlı ağıllı şəhərlər və regionalar konsepsiyasını dəstəkləmək

**Məqsəd 7.** Keyfiyyətin təminatıl sistemini təkmilləşdirmək
Hədəf 7.1. Daxili keyfiyyət təminatı yaratmaq
Hədəf 7.2. Daxili keyfiyyət təminatı mexanizmini yaratmaq
Hədəf 7.3. Öyrənmə resurslarını yaxşılaşdırmaq və tələbələrə dəstəyi gücləndirmək

## Məqsəd 1. Effektiv təlim və öyrənmə mühiti yaratmaq

| | |
|---|---|
| **Hədəf 1.1.** Tədris prosesində yeni təlim texnologiyaları və tədris metodlarını tətbiq etmək | 1.1.1.Təlim və öyrənmə proseslərində istifadə üçün təşkil ediləcək təlimlərə professor-müəllim heyətini cəlb etmək<br>1.1.2.Tədris prosesində yeni təlim texnologiyaları və metodların tətbiqinə dair seminar təşkil etmək<br>1.1.3.Yeni təlim texnologiyaları və tədris metodlarının tətbiqinə dair dinləmələr keçirmək (dərs prosesində) |
| **Hədəf 1.2.** Tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə sistemini təşviq etmək | 1.2.1. Təhsilalanların tələbəyönümlü tədris yanaşmalarından istifadəyə marağı artırmaq<br>1.2.2. Təhsilalanların tədris prosesinin təşkilində iştirakını təmin etmək<br>1.2.3. Təhsilalanların məmnuniyyət sorğularından əldə edilən nəticələrin analiz edilməsi<br>1.2.4. Təhsilalanların tələbəyönümlü tədris yanaşmalarından istifadəyə, tədris prosesinin təşkilinə marağı artırmaq üçün ardıcıl tədbirlər görmək<br>1.2.5. Öyrənmə, tədris və qiymətləndirmə proseslərində tələbəyönümlüyü tətbiq etmək |
| **Hədəf 1.3.** Əmək bazarının tələblərinə uyğun yeni proqramlar tərtib etmək | 1.3.1. Əmək bazarının mövcud vəziyyətini düzgün təhlil etmək<br>1.3.2. Əmək bazarının tələblərinə uyğun optimal tələbə qəbulu sifarişini müəyyənləşdirib vermək<br>1.3.3. Yeni proqram açmaq üçün beynəlxalq təcrübənin öyrənilməsi<br>1.3.4. Əmək bazarının mövcud vəziyyətini təhlil etmək üçün işçi qrupu yaratmaq<br>1.3.5. Təhsil proqramlarının hazırlanmasında |

| | |
|---|---|
| | əmək bazarının tələblərinin nəzərə alınması |
| Hədəf 1.4. Müəllimlərin dərslərdən əvvəl proqram materialların düzgün təhlilinin aparılmasına istiqamətin verilməsi | 1.4.1. Müəllimlər tədris prosesində tələbəyönümlü yanaşmalara üstünlük verməli<br>1.4.2. Müəllimlər tədris prosesində tələbələrə sərbəstlik verməsi |
| **Hədəf 1.5.** Təhsil proqramını yeniləmək məqsədilə düzgün idarəetmə və qiymətləndirmə vasitələrinin seçilməsinə diqqəti artırmaq | 1.5.1. Müəllimlər öyrənmə, tədris və qiymətləndirmə proseslərində tələbəyönümlülüyə kifayət qədər diqqət etməli<br>1.5.2. Təhsil alanlarda tələbəyönümlü tədris yanaşmalarından istifadəyə və tədris prosesinə marağın artırılmasını təmin etmək<br>1.5.3. Qərar qəbuletmə, öyrənmə, tədris və qiymətləndirmə proseslərində tələbəyönümlülük təmin edilməli<br>1.5.4. Tədris olunan fənlərə müvafiq olaraq təhsilalanların kitabxana xidmətindən istifadəyə istiqamət vermək<br>1.5.5. Təhsil proqramları hazırlanan zaman maraqlı tərəfləri düzgün seçmək<br>1.5.6. Yeni proqram açmaq üçün beynəlxalq təcrübədən istifadə etmək<br>1.5.7. Əmək bazarının tələblərinə uyğun yeni təhsil proqramları hazırlamaq üçün işçi qrupu yaratmaq |

**Məqsəd 2. Elmi tədqiqatları inkişaf etdirmək.**

| | |
|---|---|
| **Hədəf 2.1.** Qlobal elmi məkana inteqrasiya | 2.1.1. Fakültə beynəlxalq reytinqlərdə iştirak etməni zəruri hesab edilir<br>2.1.2. Professor-müəllim heyətinin indeksli jurnallarda yer alan məqalə sayının artırılmasını diqqətdə saxlamaq<br>2.1.3. Elmmetrik bazalarla bağlı təlimlər təşkil etmək<br>2.1.4. Qabaqcıl (OŞ, ARWU, və s.) beynəlxalq reytinqlərdə iştirakına nail olmaq |
| **Hədəf 2.2.** Elmi tədqiqatları inkişaf etdirmək | 2.2.1. Elmi tədqiqat xarakterli konfranslar, seminarlar, görüşlər və s. keçirilməsi tədbirlərini davam etdirmək<br>2.2.2. Aktiv elmi tədqiqatla məşğul olan |

| | |
|---|---|
| | professor-müəllim heyətinin say artımı gözlənilməzdir.<br>2.2.3. Tədqiqatçıların elmi uğurlarını nəzərə alaraq stimullaşdırıcı əmək sistemində iştirak etmək üçün müvafiq qurumlar qarşısında məsələ qaldırmaq.<br>2.2.4. Gənc tədqiqatçıların fəaliyyətinin stimullaşdırılmasına uyğun modelin yaradılmasına yardımçı olmaq<br>2.2.5. Professor-müəllim heyəti və tələbələrin tədqiqatçı bacarıqlarının inkişaf etdirilməsinə stimul vermək<br>2.2.6. Akademik heyət və tələbələrin elmi konfranslarda, müsabiqələrdə, elmi-tədqiqat layihələrində iştirakını təmin etmək<br>2.2.7. Tədqiqatçıların xarici akademik dil və rəqəmsal bacarıqlarının artırılmasına yardımçı olmaq |

**Məqsəd 3. İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək**

| | |
|---|---|
| **<u>Hədəf 3.1.</u>** İnnovasiya və sahibkarlığın inkişafı üçün infrastrukturu təkmilləşdirmək | 3.1.1. İnnovativ layihələrin həyata keçirilməsi üçün yüksək texnoloji struktur əldə etmək<br>3.1.2. İnfrastrukturla tanışlıq üçün məlumatlandırma günləri keçirmək lazımdır<br>3.1.3. Mövcud infrastrukturun təkmilləşdirilməsi |
| **<u>Hədəf 3.2.</u>** Fakültədə startup ideyalarının inkişafını dəstəkləmək | 3.1.1. Professor-müəllim heyəti və tələbələr arasında maraq və iştirak səviyyəsini artırmaq<br>3.2.2. Startupla bağlı dəstək üçün universitetin əlavə büdcəsində maliyyə ayrılmaları haqqında məsələ qaldırmaq<br>3.2.3. Startupların təşkili və keçirilməsi məqsədilə təlimlər təşkil etmək<br>3.2.4. Fakültə də startup yarışmaları sayını artırmaq<br>3.2.5. Startupların grandlarına, biznesə dəstək (venture) kapitalına və s. çıxış imkanlarına yardımçı olmaq |
| **<u>Hədəf 3.3.</u>** Fakültədə tələbələrə əqli-mülkiyyət məsələlərində köməklik göstərmək | 3.3.1. İnnovativ layihələr (həmçinin startuplar) innovativ məhsul və xidmətlər üzrə əqli mülkiyyət hüquqlarının mühafizəsi üçün əməli iş görmək |

**Məqsəd 4. Beynəlxalq fakültəyə çevirmək**

| | |
|---|---|
| **Hədəf 4.1.** Əcnəbi professor-müəllim heyəti və tələbələrin cəlb olunması | 4.1.1. Əcnəbi tələbə sayını artırmaq<br>4.1.2. Beynəlxalq sertifikatlar əsasında tələbə qəbulu imkanı yaratmalı<br>4.1.3. Əcnəbi tələbə və müəllimlər üçün Azərbaycan dilini öyrənmə imkanı yaratmaq<br>4.1.4. Yerli və beynəlxalq təhsil sərgilərində fakültə əməkdaşlarının iştirakını təmin etmək<br>4.1.5. Mövcud internet səhifəsi bir neçə dildə fəaliyyət göstərməsinin təşkili<br>4.1.6. Əcnəbi tələbələrin sayını artırmaq üçün bu sahədə ixtisaslaşmış təşkilatlarla əməkdaşlıq etmək<br>4.1.7. Fakültəyə beynəlxalq sertifikatlar əsasında tələbə qəbulunu artırmaq<br>4.1.8. Azərbaycan dilinin öyrədilməsi üçün kurslar təşkil etmək |
| **Hədəf 4.2.** Beynəlmiləl fakültəyə çevrilmək | 4.2.1. Biologiya ixtisası üzrə beynəlxalq ikili diplom proqramını inkişaf etdirmək<br>4.2.2. Beynəlxalq ikili diplom və xarici dillərdə təhsil proqramı açmaq üçün tələb olunan sənədlər nazirliyin təyin etdiyi qaydalara uyğun hazırlanmışdır.<br>4.2.3. Hal-hazırda Türkiyə Respublikasının İzmir şəhərində yerləşən 9 Eylül Universiteti əməkdaşlıq çərçivəsində Biologiya ixtisası üzrə ikili diplom proqramı icra olunmaqdadır<br>4.2.4. İkili diplom proqramında yeni istiqamət yaradılan zaman region və ölkə üçün lazım olan sahələr dəqiqləşdirilməlidir. |
| **Hədəf 4.3.** Beynəlxalq rəqabətliliyi artırmaq | 4.3.1. Ölkədə və xaricdə təşkil olunan beynəlxalq təhsil sərgilərində iştirak etməyə təşəbbüs göstərmək<br>4.3.2. Fakültə ölkədə təşkil olunan beynəlxalq təhsil sərgilərində iştirak etmək<br>4.3.3. Beynəlxalq səviyyədə nüfuzun artırılması məqsədilə fəaliyyətin gücləndirilməsi |
| **Hədəf 4.4.** Akademik imkanların genişləndirilməsi | 4.4.1. Türkiyə Cumhuriyyəti izmir şəhəri Dokkuz Eylül Universitetinin müəllimləri Dosent Pelin Balçıq, Prof.Dr. Arzu Görmez, Prof.Dr.Kərəm Canlı və s. ikili diplom |

| | |
|---|---|
| | proqramının icrası ilə bağlı fakültəyə dəvət olunmuş və ustad dərsləri demişlər, fakültə bu təcrübəni genişləndirmək üçün lazımi imkanlardan istifadə etməlidir.<br>4.4.2. Xarici ölkələrin müvafiq universitetləri ilə olan əlaqə-professor-müəllim heyətinin həmdə ustad dərsi deməyə cəlb olunma təcrübəsini inkişaf etdirmək |

## Məqsəd 5. Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək

| | |
|---|---|
| **<u>Hədəf 5.1.</u>** Nəticəyönümlü və şəffaf idarəetmə sisteminin yaradılması | 5.1.1. Maraqlı tərəflərin prosesdə iştirakına məqsəd qazanmaq<br>5.1.2. Rəhbər şəxslərin fəaliyyətlərinin artırılması məqsədilə qanunvericilikdə olan dəyişkənliklərə əlaqədar təlimlər keçmək<br>5.1.3. Fakültədən kənar maraqlı tərəfli nümayəndələrinin iştirakını təmin etməklə idarəetmə sistemini təkmilləşdirmək<br>5.1.4. Elektron idarəetmə sisteminin tətbiqini inkişaf etdirmək<br>5.1.5. İdarəetmə prosesinin effektivliyini artırmaq |
| **<u>Hədəf 5.2.</u>** İnsan resursları sahəsində yaxşılaşdırmaq | 5.2.1. Akademik və inzibati heyətin sayını optimallaşdırmaq. İxtisasa uyğunluğunu təmin etmək<br>5.2.2. Akademik və inzibati heyətin ixtisas artırma və peşəkarlıq səviyyəsini inkişaf etdirmək<br>5.2.3. Akademik və inzibati heyətin məmnunluğu üçün sosial və mədəni tədbirlər həyata keçirmək<br>5.2.4. Optimallaşdırma fəaliyyətləri təşviq etmək<br>5.2.5. Maraqlı tərəflərin qərar qəbul etmə prosesində iştirakına önəm vermək<br>5.2.6. Əməkdaşların mütəmadi olaraq idarəetmə ilə bağlı məmnunluq səviyyəsini ölçən sorğularda iştirak etmək<br>5.2.7. Təcrübəli müəllimlərin bilik və bacarıqlarının gənc müəllimlərə ötürülməsini təmin etmək, assistentlik təcrübəsini inkişaf etdirmək |

| | |
|---|---|
| **<u>Hədəf 5.3.</u>** İnnovasiya resursları sahəsində idarəetməni yaxşılaşdırmaq | 5.3.1. Elektron idarəetmə sistemininindən istifadəni daha da yaxşılaşdırmaq<br>5.3.2. Mütəxəssislərin İT bacarıqlarının gücləndirilmək<br>5.3.3. Elektron sənəd dövriyyəsi sistemi qurulması<br>5.3.4. Fakültənin saytında məlumatlar dəqiq, aktual və müntəzəm yenilənməlidir.<br>5.3.5. Elektron fakültə modelinə sürətli keçid təmin edilməli<br>5.3.6. Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması keçid dövrün tələbidir |

## Məqsəd 6. Dayanıqlı inkişafı təşviq etmək

| | |
|---|---|
| **<u>Hədəf 6.1.</u>** Dairəvi iqtisadiyyat, ətraf mühitin qorunması, iqlim dəyişkənliyi ilə mübarizə, enerji resurslarından səmərəli istifadə | 6.1.1. Tullantıların təkrar emalı və çeşidlənməsi sahəsində təhsil alanlar və təhsilverənlər arasında maarifləndirməni gücləndirmək<br>6.1.2. Ekoloji təmiz texnologiyanın təşviq edilməsi<br>6.1.3. Yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından səmərəli istifadəni təşviq etmək<br>6.1.4. Ətraf mühitin qorunmasına dair fəaliyyətləri artırmaq<br>6.1.5. Fakültənin tədris binasının və şəhərdə mütəmadi olaraq yaşıllaşdırmada fəallıq göstərmək<br>6.1.6. Sağlamlıq imkanları məhdud şəxslərin təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasından istifadə etmək |
| **<u>Hədəf 6.2.</u>** Dayanıqlı ağıllı şəhərlər və regionlar konsepsiyasını dəstəkləmək | 6.2.1. Dayanıqlı ağıllı şəhərlər mövzusu təşviq edilməlidir<br>6.2.2. Dayanıqlı ağıllı şəhərlər mövzusunda elmi tədqiqatlar aparmalı, müvafiq layihələr icra olunmalıdır<br>6.2.3. Akademik imkanları gücləndirmək üçün yeni layihələrin hazırlanması<br>6.2.4. Dayanıqlı ağıllı şəhərlər və regionlar konsepsiyası ilə bağlı bilik və bacarıqların artırılması |

| | |
|---|---|
| | 6.2.5. Məişət tullantılarının yenidən emala təqdim edilməsində təhsil alanlar və təhsil verənlər arasında maarifləndirmə işi aparmaq |

**Məqsəd 7. Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək**

| | |
|---|---|
| **<u>Hədəf 7.1.</u>** Keyfiyyət təminatına dair sənədləri təkmilləşdirmək | 7.1.1. Keyfiyyət təminatına dair sənədlərin hazırlanmasına marağı artırmaq<br>7.1.2. Əməkdaşların keyfiyyət təminatı haqqında məlumatlılığını təmin etmək<br>7.1.3. Keyfiyyət təminatı sənədlərinin hazırlanmasına dair seminar keçirmək<br>7.1.4. Keyfiyyət təminatı mərkəzi ilə struktur bölmələri arasında kommunikasiyanı yaxşılaşdırmaq<br>7.1.5. Keyfiyyət təminatı sahəsində fakültə ilə strukturlar arası fəaliyyətin kordinasiyasını diqqətdə saxlamaq |
| **<u>Hədəf 7.2.</u>** Daxili keyfiyyət təminatı mexanizmini yaratmaq | 7.2.1. Daxili keyfiyyət təminatı sistemi yaradılması<br>7.2.2. Keyfiyyət təminatı üzrə özünütəhlil hesabatının yazılması<br>7.2.3. Proseslərin izlənilməsi üçün monitorinq və qiymətləndirmə sistemi hazırlanmalıdır<br>7.2.4. Daxili keyfiyyət təminatı sistemin qurulması zamanı maraqlı tərəfləri prosesə cəlb etmək<br>7.2.5. Maraqlı tərəflərin məmnunluq səviyyəsi və rəylərin öyrənilməsini təmin etmək<br>7.2.6. İnstusional akkreditasiya prosesinə hazırlıq fəaliyyətinin yaxşılaşdırılması |
| **<u>Hədəf 7.3.</u>** Öyrənmə resurslarını yaxşılaşdırmaq və tələbələrə dəstəyi gücləndirmək | 7.3.1. Təhsil verənlər və təhsil alanların peşəkarlıq səviyyəsini artırmaq üçün təlimlər keçmək<br>7.3.2. Distant təhsil üçün öyrənmə və tədris imkanlarını gücləndirmək<br>7.3.4. Karyera xidmətlərini inkişaf etdirmək, məzunlarla davamlı əlaqə saxlamaq imkanlarına yeniliklər gətirmək |

***Qeyd:*** Strateji plan (2023-2028) fakültə elmi şurasının 14.07.2025-ci il tarixli iclasında (protokol №14) müzakirə və təsdiq olunmuşdur.